# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 may tarixli 194 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. “Uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 may tarixli 194 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 771; 2017, № 4, maddə 617, № 12 (II kitab), maddə 2520; 2019, № 3, maddə 517) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi uşaqların uşaq evinə qəbulu və oranı tərk etməsi, həmçinin uşaq evlərində uşaqlara xidmətin təşkili, onların təminatı və yaşayış mühiti ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 30 iyul 2020-ci il

№ 273

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin**

# NÜMUNƏVİ NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Nümunəvi Nizamnamə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır, dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin (bundan sonra – uşaq evi) fəaliyyətini tənzimləmək üçün onların nizamnamələrinin hazırlanması və dövlət qeydiyyatından keçirilməsi məqsədini nəzərdə tutur.

1.2. Bu Nümunəvi Nizamnamə hər bir uşaq evi üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.

1.3. Uşaq evi valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3 yaşından 18 yaşınadək uşaqlara (bundan sonra – uşaqlar) sosial xidmət göstərən publik hüquqi şəxsdir.

1.4. Bu Nümunəvi Nizamnamənin 1.5-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi digər hallar istisna olmaqla, dövlət adından icra hakimiyyəti orqanının (dövlət adından yaradılan publik hüquqi şəxsin) tabeliyində uşaq evini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həmin icra hakimiyyəti orqanı (dövlət adından yaradılan publik hüquqi şəxs) yaradır.

1.5. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyində uşaq evini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) yaradır.

1.6. Bələdiyyə adından uşaq evini müvafiq bələdiyyə yaradır.

1.7. Uşaq evinin müstəqil balansı, istifadəsində olan dövlət və ya bələdiyyə tərəfindən verilmiş əmlakı, bank hesabı, üzərində tabe olduğu dövlət orqanının (qurumunun) və ya bələdiyyənin adı, həmçinin öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.8. Uşaq evi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Publik hüquqi şəxslər haqqında", "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını və sərəncamlarını, bu Nümunəvi Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını və sərəncamlarını, digər normativ hüquqi aktları, tabe olduğu dövlət orqanının (qurumunun) əmr və sərəncamlarını, yaxud bələdiyyənin qərarını və öz nizamnaməsini rəhbər tutur.

1.9. Uşaq evi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. Uşaq evinin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

1.10. Uşaq evi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.11. Qanuna uyğun olaraq, uşaq evinin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Uşaq evi məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.12. Uşaq evində siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.13. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 138-ci maddəsinə əsasən tam dövlət himayəsində olmaqla uşaq evinə yerləşdirilən uşaqlara qəyyum (himayəçi) təyin edilmir. Bu vəzifə həmin müəssisələrin rəhbərliyinə həvalə edilir. Uşaqların müvəqqəti olaraq uşaq evinə yerləşdirilməsi qəyyumların (himayəçilərin) hüquq və vəzifələrini məhdudlaşdırmır.

1.14. Uşaq evinin sosial xidmət sahəsində beynəlxalq əlaqələri "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

1.15. Uşaq evi öz fəaliyyəti barədə ictimaiyyəti "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada məlumatlandırır.

1.16. Uşaq evinin nizamnaməsində onun növünü göstərən adı və yerləşdiyi ünvan göstərilir.

## 2. Uşaq evinin fəaliyyət istiqamətləri

2.1. Növündən asılı olaraq valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib

çıxaran halların qarşısının alınmasını, çətin həyat şəraiti yarandıqda ehtiyacı olan uşaqlara sosial xidmətin göstərilməsini təmin edən uşaq evlərinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. məktəbəqədər yaşlı uşaqlar üçün - məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin, əqli, fiziki, mənəvi inkişafının və ümumi təhsilə hazırlığının həyata keçirilməsi;

2.1.2. məktəbyaşlı uşaqlar üçün (məktəbi bitirən 18 yaşınadək uşaqlar da daxil olmaqla) - müvafiq təhsil müəssisələrində ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrində təhsil alınmasının təmin edilməsi və sonrakı pillələrdə təhsilin davam etdirilməsinə kömək göstərilməsi, təhsilalanlara zəruri bilik, bacarıq və vərdişlərin aşılanması, onların həyata və əmək fəaliyyətinə hazırlanmasına kömək tədbirlərinin həyata keçirilməsi;

2.1.3. məktəbəqədər və məktəbyaşlı uşaqlar üçün qarışıq tipli - bu Nümunəvi Nizamnamənin 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərində göstərilən tədbirlərin həyata keçirilməsi.

## 3. Uşaq evinin vəzifələri və hüquqları

3.1. Bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq evinin vəzifələri aşağıdakılardır:

3.1.1. sosial xidmət sahəsində dövlət siyasətinin formalaşdırılması ilə bağlı tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

3.1.2. uşaqları uşaq evinə qəbul etmək;

3.1.3. uşaqlara ödənişsiz sosial xidmət göstərmək;

3.1.4. uşaqlar üçün müvafiq yaşayış şəraitini təmin etmək;

3.1.5. keyfiyyətli sosial xidmətin həyata keçirilməsini təmin etmək;

3.1.6. sosial işçi tərəfindən sosial xidmətin formasını, növünü, göstərilmə yerini və müddətini özündə əks etdirən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə hesabatı və uşağa sosial xidmətin göstərilməsinə dair fərdi planın hazırlanmasını təmin etmək;

3.1.7. uşaqların təhsil almaları məqsədilə təhsil müəssisələrinə müraciət etmək, yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla onların intellektual, mənəvi, fiziki, psixoloji və sosial inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedadının və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını təmin etmək;

3.1.8. uşaqların özünəxidmət, ictimai yerlərdə davranış, özünə-nəzarət, ünsiyyət və həyat fəaliyyətinin digər sahələrində bacarıqlarının artırılması istiqamətində müvafiq işlər görmək;

3.1.9. bacarığı və istedadı ilə fərqlənən uşaqların musiqi məktəblərinə, uşaq və gənclər yaradıcılıq evlərinə göndərilməsini, habelə olimpiadalarda, festivallarda, müsabiqələrdə, yarışlarda, sərgilərdə iştirakını təmin etmək;

3.1.10. uşaqlara peşəyönümü ilə bağlı məsləhətlər vermək, əmək qabiliyyətli olduqda onların məşğulluğunun təmin edilməsi məqsədilə məşğulluq qurumları ilə əməkdaşlıq etmək;

3.1.11. uşaqların övladlığa, bu Nümunəvi Nizamnamənin 1.13-cü bəndi nəzərə alınmaqla himayəyə və qəyyumluğa verilməsi üçün müvafiq olaraq Nazirlik, habelə qəyyumluq və himayə orqanları ilə əməkdaşlıq etmək;

3.1.12. inkişafında qüsur, ləngimə olan və təhsildə çətinlik çəkən uşaqlara sosial-psixoloji və pedaqoji yardım göstərmək;

3.1.13. uşaqların hüquq və mənafelərinin müdafiəsini təmin etmək;

3.1.14. uşaqlar barədə məlumatların konfidensiallığını təmin etmək;

3.1.15. “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, uşaqlara mütəmadi tibbi xidmət göstərilməsinin təmin edilməsi məqsədilə onların uşaq evinin yerləşdiyi ərazi üzrə tibb müəssisəsində qeydiyyata alınması üçün müraciət etmək;

3.1.16. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.17. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.18. uşaq evi üçün ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.19. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.20. müvafiq sahədə inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, aidiyyəti üzrə məlumat vermək;

3.1.21. uşaq evinin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.22. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.23. “Sosial xidmət haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Ümumi təhsil haqqında”, “Peşə təhsili haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə uşaq evinin nizamnaməsi ilə müəyyən edilən digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün uşaq evinin aşağıdakı hüquqları vardır:

3.2.1. məktəbəqədər yaşlı uşaqların təhsilini təşkil etmək;

3.2.2. dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları

ilə, digər müəssisə və təşkilatlarla əməkdaşlıq etmək;

3.2.3. dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.4. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.5. sosial xidmətin göstərilməsi ilə bağlı müstəqil ekspertləri, mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.7. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.8. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.9. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.10. “Sosial xidmət haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Ümumi təhsil haqqında”, “Peşə təhsili haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə uşaq evinin nizamnaməsi ilə müəyyən edilən digər hüquqları həyata keçirmək.

## 4. Uşaq evinin idarə olunması

4.1.2. Uşaq evi aşkarlıq və şəffaflıq prinsipləri əsas tutulmaqla, “Publik hüquqi şəxslər haqqında” və “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarına və uşaq evinin nizamnaməsinə uyğun olaraq idarə edilir.

4.2. Uşaq evinin təsisçisinin səlahiyyətləri aşağıdakılardır:

4.2.1. uşaq evinin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.2.2. idarəetmə orqanlarının yaradılması;

4.2.3. idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.4. inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

4.2.5. uşaq evinin strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının (o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq qaydalar nəzərə alınmaqla əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi;

4.2.6. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

4.2.7. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), habelə publik hüquqi şəxsə aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faizini və daha çox hissəsini təşkil etdikdə) bağlanılmasına razılıq verilməsi;

4.2.8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə əsasən uşaq evinin mənfəətinin onun nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün müvafiq olaraq dövlət büdcəsinə və yerli büdcəyə köçürülməsi ilə bağlı qərarın qəbul edilməsi;

4.2.9. uşaq evinin yenidən təşkili və ləğv edilməsi.

4.3. Bu Nümunəvi Nizamnamənin 4.4-cü bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi digər hallar istisna olmaqla, dövlət adından icra hakimiyyəti orqanının (dövlət adından yaradılan publik hüquqi şəxsin) tabeliyində yaradılan uşaq evinin nizamnaməsini və onda dəyişiklikləri həmin icra hakimiyyəti orqanı (dövlət adından yaradılan publik hüquqi şəxs) təsdiq edir.

4.4. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) təklifi əsasında onların tabeliyində yaradılan uşaq evinin nizamnaməsini və onda dəyişiklikləri Nazirlik təsdiq edir.

4.5. Bələdiyyə adından yaradılan uşaq evinin nizamnaməsini və onda dəyişiklikləri müvafiq bələdiyyə təsdiq edir.

4.6. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyində yaradılan uşaq evinə münasibətdə təsisçinin səlahiyyətlərini (bu Nümunəvi Nizamnamənin 4.2.1-ci, 4.2.2-ci, 4.2.3-cü və 4.2.9-cu yarımbəndlərində nəzərdə tutulmuş səlahiyyətlər istisna olmaqla) tabe olduğu dövlət qurumu həyata keçirir.

4.7. Uşaq evinin cari fəaliyyətinə rəhbərlik təsisçinin vəzifəyə təyin və vəzifədən azad etdiyi, ali pedaqoji təhsilə və təhsil sahəsində 5 (beş) ildən az olmayan əmək stajına malik olan direktor tərəfindən həyata keçirilir. Direktorun müavini (müavinləri) təsisçi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Direktorun müavinlərinin sayını təsisçi müəyyən edir.

4.8. Direktor:

4.8.1. uşaq evinin cari fəaliyyətinə rəhbərlik edir və bu fəaliyyət üçün şəxsən məsuliyyət daşıyır;

4.8.2. uşaq evini dövlət orqanları (qurumları) ilə, digər yerli və beynəlxalq qurumlarla, fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;

4.8.3. uşaq evinin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncamlar və əmrlər verir;

4.8.4. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün tabe olduğu dövlət orqanına (qurumuna) və ya yerli özünüidarəetmə orqanına təkliflər verir və sənədlər (o cümlədən uşaq evinin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;

4.8.5. bu Nümunəvi Nizamnamənin 4.2.5-ci yarımbəndinə uyğun müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində ştat cədvəlini, bələdiyyə adından yaradılmış uşaq evində isə xərclər smetasını uşaq evinin tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə ilə razılaşdırmaqla, həmçinin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını təsdiq edir;

4.8.6. uşaq evinin işçilərinin (direktor müavinləri istisna olmaqla) vəzifəyə təyin və vəzifədən azad edilməsinə, uşaq evinin işçiləri (bu Nümunəvi Nizamnamənin 4.7-ci bəndi nəzərə alınmaqla) barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsinə dair qərarlar qəbul edir;

4.8.7. uşaq evinin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.8.8. uşaq evinin işçilərinə vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini bu Nümunəvi Nizamnamənin 4.2.5-ci yarımbəndinə uyğun müəyyən edilmiş əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.8.9. uşaq evinin əmlakından bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir və uşaq evinin fəaliyyəti üçün nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.8.10. bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində uşaq evinin adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən təsisçinin razılığı ilə uşaq evinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri uşaq evinin aktivlərinin 5 faizini və daha çox, həmçinin 5 faizədək hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.8.11. uşaqların uşaq evinə qəbulunu və oranı tərk etməsini təmin edir;

4.8.12. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 115.3-cü maddəsinə əsasən uşaqların tərbiyə olunması üçün ailəyə verilməsinin mümkün olduğunu bildikdə, 7 (yeddi) gün müddətində yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına və Nazirliyə bu barədə məlumat verir;

4.8.13. bu Nümunəvi Nizamnamənin 3.1.6-cı yarımbəndində nəzərdə tutulmuş fərdi planı təsdiq edir;

4.8.14. uşaq evində uşaqların sağlam və keyfiyyətli qida məhsulları ilə təmin olunması üçün müvafiq tədbirlər görür;

4.8.15. uşaqlara qarşı zorakılıq, istismar, sui-istifadə hallarının qarşısının alınması üçün konkret tədbirlər görür, belə hallar olduqda aidiyyəti üzrə daxili işlər və yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanlarına, habelə Nazirliyə məlumat verir;

4.8.16. uşaq evinin fəaliyyət istiqamətləri ilə bağlı komissiyalar və işçi qruplar yaradır;

4.8.17. uşaq evinin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.8.18. uşaq evində kargüzarlığın və arxiv işinin aparılmasını təmin edir;

4.8.19. müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.8.20. yoxlamaların nəticələrinə dair tədbirlər görür;

4.8.21. uşaq evinin inzibati binalarının əsaslı və cari təmiri, habelə abadlıq işləri üçün müvafiq tədbirlər görür;

4.8.22. uşaq evində yanğından mühafizə, əməyin mühafizəsi, sanitariya-gigiyena normalarına və qaydalarına riayət olunmasını təmin edir;

4.8.23. uşaq evinin cari fəaliyyəti ilə bağlı digər məsələləri həll edir.

4.9. Uşaq evində xidmətlər uşaq evinin direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən psixoloqlar, sosial işçilər və sosial xidmətçilər tərəfindən göstərilir.

## 5. Uşaq evinin nizamnamə fondu, əmlakı və maliyyə-təsərrüfat fəaliyyəti

5.1. Uşaq evinin nizamnamə fondunun məbləği (məbləğ göstərilməklə) manatdır.

5.2. Uşaq evinin əmlakı nizamnamə fondundan, ona təsisçinin verdiyi digər əmlakdan, habelə dövlət büdcəsindən və ya bələdiyyə büdcəsindən ayrılan vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Uşaq evininin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.4. Uşaq evi öz əmlakından yalnız nizamnaməsi ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

5.5. Bu Nümunəvi Nizamnamənin 5.4-cü bəndi nəzərə alınmaqla, uşaq evi əmlakı üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə ilə razılaşdırmaqla həyata keçirir. Uşaq evi qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra uşaq evinin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin fəaliyyətindən əldə edilmiş vəsait üzərində sərəncam vermək hüququna malikdir.

5.6. Uşaq evi tabe olduğu dövlət orqanının (qurumunun) və ya

bələdiyyənin razılığı ilə təsərrüfat cəmiyyətləri yaradır və ya onlarda iştirak edir, habelə idarə, filial və nümayəndəliklər yaradır.

5.7. Uşaq evi mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Uşaq evinin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə, həmçinin nizamnaməsi ilə müəyyən edilmiş qaydada uşaq evinin idarəetmə orqanları həyata keçirirlər.

## 6. Uşaq evinin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Uşaq evinin fəaliyyətinə nəzarəti təsisçi, həmçinin bu Nümunəvi Nizamnamənin 4.3-cü və 4.4-cü bəndlərinə uyğun təsdiq edilmiş nizamnaməsi ilə müəyyən edilmiş qaydada uşaq evinin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Uşaq evinin tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə uşaq evində plan üzrə və ya plandankənar yoxlamalar həyata keçirə bilər.

6.3. Uşaq evinin fəaliyyətinə dair illik hesabat tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təqdim edilir.

6.4. Uşaq evinin fəaliyyətinə nəzarət “Publik hüquqi şəxslər haqqında”, “Sosial xidmət haqqında”, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının qanunlarına və Azərbaycan Respublikasının digər qanunlarına uyğun olaraq həyata keçirilir.

6.5. Uşaq evində uşaqların hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq təmin edilir.

6.6. Uşaq evinin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün uşaq evinin tabe olduğu dövlət orqanı (qurumu) və bələdiyyə kənar auditor təyin edir və onun audit hesabatını qəbul edir.

6.7. Uşaq evində daxili audit bölməsi yaradıldığı halda, uşaq evinin tabe olduğu dövlət orqanı (qurumu) və bələdiyyə həmin bölmənin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

## 7. Uşaq evində uçot və hesabat

7.1. Uşaq evi “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Uşaq evi “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Uşaq evi idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

## 8. Uşaq evinin yenidən təşkili və ləğv edilməsi

8.1. Bu Nümunəvi Nizamnamənin 8.2-ci bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi digər hallar istisna olmaqla, dövlət adından icra hakimiyyəti orqanının (dövlət adından yaradılan publik hüquqi şəxsin) tabeliyində yaradılan uşaq evinin yenidən təşkilini və ləğv edilməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həmin icra hakimiyyəti orqanı (dövlət adından yaradılan publik hüquqi şəxs) həyata keçirir.

8.2. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət adından dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyindəki uşaq evinin yenidən təşkilini və ləğv edilməsini, həmin hüquqi şəxslərin təklifləri əsasında, Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Nazirlik həyata keçirir.

8.3. Bələdiyyə tərəfindən yaradılmış uşaq evinin yenidən təşkilini və ləğv edilməsini həmin bələdiyyə həyata keçirir.